# Dövlətin fəaliyyətində innovativ texnologiyaların inkişaf perspektivləri

Ofelya Mazanova
Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
ofelya2008@gmail.com, ofelyaofelya@mail.ru

**Xülasə - Məqalədə dövlətin idarə edilməsində yeni texnologiyaların tətbiqi və bu sahədə beynəlxalq təcrübə tədqiq olunur.**

***Açar sözlər - elektron dövlət, xidmət dövləti, qlobal dövlət***

## I. GİRİŞ

Məlumdur ki, dövlətin fəaliyyətində innovativ texnologiyaların tətbiqinın aktuallığı məsələləri zamanın tələbidir. Belə ki, dövlətin fəaliyyətinin İKT-dən istifadə etməklə informasiya aspektlərini həyata keçirmək üçün “elektron dövlət” termini nəzərdə tutulmuşdur. Müxtəlif mənbələrdən elektron dövlət nəzəriyyəsi haqqında məlumatlara nəzər yetirək. BMT ekspertləri tərəfindən ilk olaraq, dövlət fəaliyyətində innovasiya və innovasiya problemləri mövzuları işlənilmişdir. Hazırda dövlət orqanlarının əhaliyə hüquqi xidmətlərin göstərilməsində şəbəkə və elektron texnologiyaların tətbiqi həyata keçirilir. Demokratiya və texnologiyalar mərkəzinin direktoru Ceyms Dempsi demişdir: ”Elektron dövlət İKT-dən istifadə etməklə hökuməti vətəndaşlar üçün daha əlyetərli, effektiv və məsuliyyətli etmək məqsədi daşıyır. Elektron dövlətə keçid dövlət qulluqçularının hər birinin iş otağının kompüterlə təchiz olunması demək deyil. Elektron hökumətdə dövlət qulluqçuları ilə digər vətəndaşlar arasında qarşılıqlı münasibət dəyişməsidir” [1].

Elektron hökumət, İnformasiya texnologiyalarından səmərəli istifadə etməklə hökumətin vətəndaşlarla qarşılıqlı əlaqəsini şəffaf, məsuliyyətli təmin edən bir strukturdur. Elektron hökumət elektron dövlətin bir qoludur. e-Hökumətdə maariflənmə xüsusi əhəmiyyət kəsb edir, yəni yeni texnologiyalardan istifadə bacarığı, idarəetmə sahəsində insanların peşəkar hazırlığı üçün vacib şərtdir. e-Hökumət yalnız elektron vətəndaş üçündür. Başqa sözlə desək, elektron hökumətin təqdim etdiyi xidmətlərdən yalnız elektron vətəndaş bəhrələnə bilər. Elektron vətəndaş dedikdə, hökumətin təqdim etdiyi elektron xidmətlərdən, onlayn kommunikasiyasından istifadə edə bilən vətəndaş başa düşülə bilər. Elektron hökumətin formalaşmasının əsas mərhələlərindən biri, hökumətin təqdim etdiyi xidmətlərini vətəndaşların onlayn rejimində istifadə edə bilməsidir. Hökumətlə vətəndaşlar arasında informasiya mübadiləsinin mobil və simsiz, eləcə də digər informasiya texnologiyaları vasitələri ilə aparılması modelinə nəzər yetirək:- Government-to-Citizens (G2C) və ya Citizens-to-Government (C2G) artıq dünyanın bir sıra ölkələrində çox uğurla tətbiq olunmaqdadır[2].

E-dövlət xidmətləri aşağıdakı əlaqələr üzərində qurulmuşdur.




Sxem 1.e-dövlət əlaqələri

## II. BEYNƏLXALQ TƏHLİLLƏR

İlk davamedici təhsil meydana çıxandan bu günə qədər güclü dövlətin problemləri alim və siyasətçi xadimlərinin şüurunu həmişə həyacanlandırır.

Elmi tədqiqat üsulları dialektika qanunları nöqteyi-nəzərindən hüquqi hadisələrin öyrənilməsin nəzərdə tutan dialektik metoddur. Dialektik metod, dövlət idarəçiliyinə daxil olan hüquqi xüsusiyyətləri, güclü və xidmət dövlətinin fərqli funksiyalarını aşkar etməyə imkan verir. Tez-tez istifadə olunan elmi metodlar tarixi, hüquqi, normativ, məntiqi, sistem, struktur -funksional kimi sahələri əhatə edir və dövlətin idarə edilməsi üzrə mövcud təhlillər aparır [3].

Keçən əsrin 90-cı illərində ABŞ və qərbi Avropa ölkələrində geniş yayılmış dövlətin xidmət konsepsiyası, fərdi xidmət üzrə dövlət təyinatı və dövlətin fərdlə praktiki olaraq istənilən qarşılıqlı fəaliyyəti dövlət xidməti hesab olduğunu bildirir. Eyni zamanda göstərilir ki, dövlət sisteminin inkişafının xidmət ideyası klassik iqtisadi sxemə əsaslanır: “istehsalçı xidməti - istehlakçı”, burada dövlət institutlarının qanunilik və dayanıqlığı fərdi və qrup maraqlarının və tələbatlarının effektiv həyata keçirilməsi və modelləşdirilməsinə bağlıdır. Bu “qlobal maraqlar” milli mənəvi-əxlaqı dəyərlər dövlət idarəçiliyində öz aktuallığını itirir.

İdarəetmənin “Xidmət” təşkilində keyfiyyət göstəriciləri “müştəri məmnuniyyət” kimi çıxış edir. Burada idarəetmənin fəaliyyətinin (sistem əlaqəli

sosiologiya, psixoloji, inzibati, iqtisadi, informasiya, hüquqi formaları, üsulları, metodları və üsulları) məqsəd və vəzifələrinin qaydaya salınmasında kompleks yanaşmadan istifadə tələbi əsaslandırılır. Həyat və təhlükəsizliyin təmin olunması kimi məsələlərdə cavabdehlik məhz, dövlətin üzərinə düşür. Burada müştəri məmnunluğu, fərdi və qrup maraqlarının təmin edilməsi nəzərdə tutulur. Dövlətə xidməti yanaşmanın əsas mahiyyəti, nüfuzlu-hüquqi fəaliyyətin optimallaşdırılması-na, şəbəkə formasında qarşılıqlı idarəetmənin inkişafına istiqamətləndirilir. Bundan başqa, elektron hökumətin formalaşmasına, planlaşdırma və kommunikativ texnologiyalarına nəzarət, onlayn xidmətlərin inkişafına, çoxtərəfli əlaqələrin formalaşmasına, hökumətin idarəolunmasında vətəndaşların aktiv iştirakına yönləndirilir [3].

## III. XIDMƏTLƏR” DÖVLƏTININ ELMI NƏZƏRI ƏSASLARI

Hal-hazırda yerli və xarici ədəbiyyatda “dövlət xidmətləri”, “xidmətlər dövləti”, “hüquqi dövlət” terminlərinə vahid yanaşma hələ formalaşmayıb. Müxtəlif konseptual inkişafları ümumiləşdirərək demək olar ki, “xidmətlər dövləti” təşkiletmənin xüsusi siyası formasıdır və fiziki şəxslərə ictimai xidmətlər göstərməyə, layiqli insanın həyat fəaliyyətinin sosial-hüquqi təminatına yönləndirilmiş bir sistemdir.

Bir çox analitiklər təsdiq edirlər ki, inkişafda olan bu yanaşma, xidmətlər dövlətinin və idarəetmə fəaliyyətinin şəbəkə metodologiyası ilə təkmilləşdirilməsini, idarəetmənin bürokratik üsulunun çatışmazlıqlarını, başqa insanlara apelyasiyasız üsulla təsiri, idarəetmə texnologiyası və ənənəvi formalarda cəmiyyət və dövlətin qarşılıqlı praktiki problemini, sistem nöqsanlarını düzəldir. Bunları nəzərə alaraq, “şəbəkə dövləti” erasının gələcəyindən danışmaq çox tezdir. Buna görə də qarşılıqlı əlaqəli dövlət-hüquqlu şəbəkə prinsipləri idarəetmənin fəaliyyətinin təşkili forması kimi qəbul edilməlidir. Çünki ictimai institutların qarşılıqlı mobil fəaliyyətinin təmin edilməsinə, ictimai proseslərin ənənəvi siyasi-hüquqi tənzimlənmə xərclərinin azaldılmasına imkan verir [3].

## IV. GÜCLÜ DÖVLƏT SIYASƏTI

İdarəetmə sisteminin modernləşdirilməsinin alternativ variantı olan xidmət anlayışının rəqibləri arasında “güclü dövlət” konsepsiyasını qeyd etmək olar.

Onun inkişafına xidmət edən faktorlar arasında sosial-tarixi və ideya-nəzəri faktorlara daha çox yer verilir. Material faktorlara, ictimai münasibətlərin əsas qanunauyğunluqların, bu münasibətlərin bilavasitə iştirakçılarından dövlət hakimiyyəti aparatına – dövlətə kimi ictimai münasibətlərin mürəkkəbləşdirilməsi prose-sində idarəetmə funksiyalarının yenidən bölüşdürülməsini aid etmək olar [3].

İdarəetmənin səmərəliliyinin gücləndirilməsini, idarəetmə proseslərinin mərkəzləşdirilməsi ilə birbaşa əlaqələndirirlər. Bu da idarəetmə aparatının böyük hakimiyyət səlahiyyətlərini əldə etməsini nəzərdə tutur.

Güclü dövlətçilik problemləri müxtəlif sahələrinin filosofların, politoloqların iqtisadçıların hüquqşünasların diqqətini cəlb edib və cəlb edəcəkdir.

Liberal təlimlərin güc fenomeninə yanaşma xüsusiyyəti fərqlidir. Bu təlimə əsasən dövlətin gücü real imkanlar daxilində fərdləri özlərinin təbii, ayrılmaz hüquqları ilə təmin etməkdir.

Məlumdur ki, hüquqi dövlət paradiqması öz konseptual təsbitini qəbul etmişdir. Bu paradiqmanın formalaşmasında alman alimləri Belker, Qeqel, Kant və başqalarının xüsusi töhfələri olmuşdur.

Güclü dövlət – özünün bütün funksiyalarını və sosial təyinatını dəqiq yerinə yetirən effektiv, tam, nüfuzlu və inamlı dövlətdir. Lakin elmdə “güclü dövlət” dedikdə demokratik mövqeyi təslim etmək, totalitar keçmişə qayıdış, əmr-inzibati idarəetmə tədbirlərinə qayıtmaq, bürokratik maşınla insana zülm etmək başa düşülür.

Beləliklə, dövlətin gücünü “idarəetmə normasına” və dövlətin inkişafının yeni faktorlarına görə “dinamik gücə” ayırmaq olar.

Dinamik faktor, güclü dövlət konsepsiyasının əsaslandırılmasında mühüm rol oynayır. Çünki keçid dövrü problemlərini həll etməyə, dövlətin idarə edilməsi üzrə xidmət nəzəriyyəsinin təbliğinə kömək edir. Dövlətin təyin olunmuş nəzəriyyəsinin hər bir bölməsi spesifik funksiyaya malikdir. Xidmətli və güclü dövlət informasiya mübadiləsi planı üzrə vətəndaşlarla dövlət arasında dialoqun dəstəklənməsinə, istiqamətlənmişdir. Nəticədə dövlətlə vətəndaş arasında fasiləsiz kommunikasiya baş verəcəkdir. Dünya təcrübəsindən nümunələrə nəzər yetirək [3].

1987-ci ildə koreyada ilkin olaraq milli informasiya sistemi yaradılmışdır. Koreya təcrübəsində “Qlobal dövlət” nəzəriyyəsi irəli sürülür. Bu aşağıda göstərilən sxemdə öz əksini tapır:




Sxem 2. İnformasiya cəmiyyətinin siyasəti.

İspaniyanın “Orange” fondu İnformasiya cəmiyyətinin inkişaf evolyusiyası üzrə monitorinqin illik hesabatını həyata keçirir. Dünyada informasiya cəmiyyətinin ölçülməsi üzrə reytinq cədvəlində 58 bal toplayaraq, 17-ci mövqeni tutur. E-hökumətin inkişafında əsas diqqət dövlət müəssisələri, idarəetmə orqanlarının İKT-dən istifadə bacarıqlarının istifadəsinə, onlayn kursların təşkilinə yönləndirilmişdir.

2006-cı ildə Rusiyanın Yuqra vilayətinin Xantı-mansiyik avtonom dairəsində ilk dəfə olaraq “e-Citezen” beynəlxalq pilot layihəsi həyata keçirilməyə başlandı. Bu sosial-siyasi layihə vətəndaşlarla dövlət arasında azad informasiya mübadiləsinin təşkil edilməsinə istiqamətləndirilmişdir [2]. Eyni zamanda, informasiya siyasətini təkmilləşdirmə zamanı işlərin koordinasiyasını gücləndirmək üçün aşağıdakı üç əsas maraq nəzərə alındı:




Sxem 3. Elektron dövlət üzrə Rusiya təcrübəsi.

Azərbaycan Respublikasında elektron dövlətin qurulması istiqamətində həyata keçirilən dövlət siyasətinə diqqət yetirsək, görərik ki, Azərbaycanda elektron dövlətin yaradılması "Elektron Azərbaycan" proqramı daxilində həyata keçirilir. Bu dövlət idarəçiliyinin keyfiyyətinin artırılmasına yönəldilmişdir. Dövlətin praktiki idarəedilməsində innovativ metodların tətbiqi elektron hökumət texnologiyalarından istifadə etməklə həyata keçirilir. Bu gün ölkəmizdə dövlət saytlarında olan xidmətlərin sayı 475, elektron hökumət portalında (www.e-gov.az) vətəndaşlara təqdim olunan xidmətlərin sayı 381-ə çatmışdır. Statistik göstəricilərə nəzər yetirsək görərik ki, artıq bir miliyona qədər vətəndaş bu xidmətlərdən istifadə edə bilir [4].

## ƏDƏBIYYAT

[1] www.rae.ru/fs/pdf/2012/3-3/50.pdf

[2] O.İ.Mazanova, Q.V.Mirzəyev “Elektron hokumət”, Müəllim nəşriyyatı, Bakı 2010.

[3] CNews № 65, 2013. Стр. 34–47. www.cnews.ru/mag/2013/03/CNEWS_65.pdf

[4] www.e-gov.az